

**Ədalət Vəliyev,**
*Azərbaycan Respublikası Mədəniyyət və Turizm nazirinin müavini*

# QOBUSTANDAN yol gələn naxışlar

***B**urada dörd mindən artıq qaya təsvirləri aşkarlanmış və elmi cəhətdən öyrənilmişdir. Qobustan qayaüstü təsvirlərinin ilk nümunələrinin mezolit dövrünə aid olduğu alimlər tərəfindən sübuta yetirilmişdir. Məşhur Norveç alimi Tur Heyerdal Qobustan qaya təsvirlərini Nord Ləndən tapılan rəsmlərlə müqayisə edirdi. Ümumdünya tarixi əhəmiyyətini nəzərə alaraq UNESCO tərəfindən Qobustan ümumdünya mədəni irs siyahısına salınmışdır.*

Qayaüstü təsvirlərlə yanaşı, həmçinin arxeoloji qazıntılar zamanı aşkar olunmuş bir çox maddi mədəniyyət nümunələri - dulusçuluq, zərgərlik, metalişləmə və s. meqalitik tikililər - menhirlər, dolmenlər, sikloptik tikintilər qədim əcdadların qoyub getdiyi zəngin mədəni irsin izləridir. Xanlar rayonundakı meqalitik tikililəri məşhur Stoun hedjlə müqayisə etmək mümkündür.

Müxtəlif dekorativ tətbiqi sənət nümunələrinin üzərində aşkarlanan rəsm nümunələri, Azərbaycan xalçalarının zəngin nəbati və ornamental naxışları Azərbaycan ustalarının istedadından, xalqımızın incə estetik duyumundan, bədii təxəyyülündən, geniş dünyadərkindən xəbər verir. Təsadüfi deyil ki, Strabon, Ptolemey kimi qədim yunan alimlərinin əsərlərində Azərbaycandan bəhs edilir. Azərbaycan mədəniyyətinin bir çox nümunələri xarici ölkələrin muzey və şəxsi kolleksiyalarını bəzəyir. Hersoq Anton Ulrix adına muzeydə, Qastello Vekkionun şəxsi kolleksiyasında Azərbaycanda toxunmuş bədii tikmələr saxlanılır. London Kral Asiya Cəmiyyətinin kitabxanasında, Luvr, Drezden, Topkapı, Metropoliten, Sankt-Peterburq Dövlət Ermitajında, Tretyakov Qalereyasında, Moskva Silah Palatasında və bütün dünya üzrə məşhur digər zəngin muzeylərdə Azərbaycan ustalarının, rəssamlarının əl işlərinə rast gəlmək olar.

Çoxsaylı maddi mədəniyyət nümunələri, Qız qalası, Yüsif ibn Küseyr türbəsi, Möminə Xatun məqbərəsi, Bərdə türbəsi, Təbriz Göy məscidi, Şirvanşahlar saray kompleksi və s. kimi unikal memarlıq abidələri Azərbaycan xalqının zəngin mədəni ənənələrə malik olduğunu sübut etməklə yanaşı dünya mədəniyyəti xəzinəsinə verilən əvəzolunmaz töhfələrdir.

Azərbaycan mədəniyyətinin əsas aparıcı qollarından biri də rəssamlıq sənətidir. Öz tarixi kökləri ilə Qobustan, Gəmiqaya abidələrinə bağlı olan Azərbaycan rəssamlığının son dərəcə maraqlı sahəsi orta əsr miniatür sənəti hesab edilir. Azərbaycan miniatürlərinin hələlik məlum olan ilkin nümunələri "Vərqa və Gülşa" (XIII əsrin əvvəlləri), "Mənafi əl-heyvan" (XIII əsrin sonları), "Cami ət-təvarix" (XIV əsr) əlyazmasına çəkilən miniatürlərdir. "Vərqa və Gülşa" öz başlanğıcını Azərbaycan xalqının zəngin folklorundan götürür. Burada 71 miniatür vardır. Miniatürlərin təhlili göstərir ki, bu dövr Azərbaycan miniatür sənətinə ərəb-mesopatam və çin-uyğur rəssamlıq sənətinin bədii ənənələri təsir göstərmişdir. Lakin bir qədər sonrakı Hülakülər dövrünə aid olan miniatürləri, Demott Şahnaməsinin, XV əsrə aid Abdulbaği Bakuvinin miniatürlərini nəzərdən keçirdikdə XVI əsr Təbriz miniatür məktəbinin təşəkkül tapmasına aparan yol qabarıq şəkildə özünü biruzə verir.

XVI əsr Təbriz miniatür məktəbinin banisi ustad Soltan Məhəmməd olmuşdur. Onun XII əsr dahi Azərbaycan şairi Nizami Gəncəvinin məşhur "Xəmsə"sinə çəkdiyi miniatürləri və





*Azərbaycan Cənubi Qafqazın zəngin mədəniyyətə və qədim tarixə malik ölkəsidir. Dünyada mövcud olan 11 iqlim qurşağından 9-na ölkəmizdə rast gəlinir. Əlverişli iqlim şəraiti, zəngin təbii resurslar hələ ibtidai icma dövründən etibarən ölkəmizin ən qədim insanların yaşayış məskəninə çevrilməsinə səbəb olmuşdur.*



*Ən qədim əcdadlarımız yaşayan Qarabağın Quruçay deyilən ərazisindəki Azıx mağarasından aşkarlanmış qadın alt çənə sümüyü (e.ə. 350-400 min il) qədimliyinə görə dünyada birinci yeri tutur və bu Quruçay maddi mədəniyyətini Oldvay maddi mədəniyyəti ilə müqayisə etməyə imkan verir. Ən qədim yaşayış məskənlərindən biri də ölkəmizin paytaxtı Bakıdan təxminən 70 km aralıda yerləşən Qobustan ərazisidir.*

ayrı-ayrı vərəqləri Səfəvilər dövrü Azərbaycan təsviri sənətinin yüksək inkişaf səviyyəsindən xəbər verir.

Azərbaycan Səfəvilər dövlətinin banisi I Şah İsmayıl dövlət işləri ilə yanaşı, mədəniyyət və incəsənətin qayğısına qalırdı. O, dövrün tanınmış alimləri, şairləri ilə yanaşı miniatürsazları, xəttatları da saraya cəlb edərək onlara geniş imtiyazlar vermiş, özü də Xətai təxəllüsü ilə şerlər yazmışdır.

Azərbaycanın zəngin mədəniyyəti bir çox Avropa səyyahlarının əsərlərində qeyd olunur. İntibah dövrü rəssamlarının əsərlərində biz Azərbaycan xalçalarının təsvirlərinə rast gəlirik ki, bu da qədim ipək yolunun üzərində yerləşən ölkəmizin mədəni əlaqələrinin göstəricisidir. İntibah dövrünün məşhur rəssamları – Çellino Çennini, Leonardo da Vinçi, Albrext Dürer və başqaları rəngkarlıq sənətinə həm də öz xüsusi qayda-qanunları olan elm kimi baxır və rəssamlığa dair traktatlar yazırdılar.

XVI əsr Azərbaycan miniatür ustası Sadıq bəy Əfşar da rəssamlıq sənətinə eyni nəzərlə baxaraq "Qanun əs-süvər" adlı risalə yazmış və öz yaradıcılıq konsepsiyasını açıqlamışdır. Onun "Qatıra minmiş dərviş" adlı miniatürü orta əsr Azərbaycan miniatürlərinin şərti, sxematik təsvir qanunlarının sərhədlərindən kənara çıxmış və realistik təsvir üsullarına əsaslanmışdır.

XVIII əsrə aid olan Azərbaycan memarlığının nadir incisi, Usta Qənbər Qarabaği və onun şagirdləri tərəfindən işlənilmiş Şəki xan sarayının interyeri nəbati, ornamental naxışlarla və müxtəlif məişət və ov səhnələri ilə bəzədilmişdir ki, bu da Azərbaycan divar rəngkarlığının unikal nümunəsidir.

XIX əsr təsviri sənətimizin ən görkəmli nümayəndələrindən Mirzə Qədim İrəvani, Mir Möhsün Nəvvab və şairə rəssam Xurşudbanu Natəvanın adlarını xüsusilə qeyd etmək yerinə düşərdi. Xurşudbanu Natəvan məşhur fransız səyyahı Aleksandr Düma ilə görüşmüş və ona öz əl işlərindən ibarət hədiyyə vermişdir. Şairənin incə zövqü, geniş dünyagörüşü qarşısında heyranlığını gizlətməyən Aleksandr Düma ona sümükdən hazırlanmış şahmat hədiyyə etmişdir.

XX əsr Azərbaycan rəssamlıq sənətinin görkəmli nümayəndəsi Bəhruz Kəngərli olmuşdur. O, ilk peşəkar təhsilli azərbaycanlı rəssam idi. Çox qısa-cəmisi 30 il ömür sürməsinə rəğmən özündən sonra zəngin bədii irs qoyub getmişdir.

Ötən əsrin əvvəllərində Azərbaycan təsviri sənətində əsaslı keyfiyyət dəyişiklikləri baş vermişdir. Monumental və dəzgah rəngkarlığı və heykəltəraşlığı meydana gəlmiş, Bakıda ilk dəfə 1920-ci illərin əvvəllərində rəssamlıq məktəbi açılmışdır.

Qrafika, plakat sənəti, kitab tərtibatı sahə-sində əsaslı nailiyyətlər qazanılmışdır. Görkəmli Azərbaycan rəssamı Əzim Əzimzadənin satirik əhval-ruhiyyəli qrafik işləri Azərbaycan incəsənətində yeni yolun əsasını qoymuşdur.

Bir çox rəssamlar keçmiş SSRİ-nin nüfuzlu ali rəssamlıq təhsili verən məktəblərində oxumuş və Azərbaycan təsviri sənətində önəmli dəyişikliklərin əsasını qoymuşlar. Onların arasında Mikayıl Abdullayev, Böyükağa Mirzəzadə, Qəzənfər Xalıqov, Elbəy Rzaquliyev, Tağı Tağıyev, Maral Rəhmanzadə, Baba Əliyev, Vəcihə Səmədova, Lətif Feyzullayev, Xalidə Səfərova, Mahmud Tağıyev və başqaları öz fərdi üslubu, orijinal ideyaları, zəngin yaradıcılıq axtarışları sayəsində xeyli uğurlar qazanmışlar.

1950-1960-cı illərdə Azərbaycan rəssamlarının sırasına qoşulan Səttar Bəhlulzadənin adını xüsusilə qeyd etmək yerinə düşür. Səttar Bəhlulzadə respublikanın bütün guşələrini gəzərək plenerdə rəsm çəkən ilk rəssamlardan olmuşdur. Azərbaycanın əsrarəngiz təbiət gözəlliyindən aldığı ilham və təəssüratın ilkinliyini qoruyub saxlayan Səttar Bəhlulzadə daha çox təəssürat rəssamı kimi məşhur idi.

Tahir Salahov, Toğrul Nərimanbəyov kimi dünya şöhrətli rəssamların incəsənətimizin inkişafına gətirdikləri yenilikləri və əvəzsiz töhfələri sözlə ifadə etmək bir o qədər də asan deyildir. Tahir Salahov nəinki Azərbaycanda, hətta keçmiş SSRİ-də "Sərt üslub" adlandırılan yaradıcılıq üslubunun əsasını qoymuşdur.

1970-80-ci illərdə Azərbaycan rəssamları arasında sənətdə artıq yeni yolla getməyi üstün tutan Rasim Babayev, Tofiq Mircavadov, Cavad Mircavadov, Murad Əfşar, Kamal Əhməd, Fərhad Xəlilov, Elçin Aslanov, Sənan Qurbanov, Mais Ağabəyov, Ağəli İbrahimov, Faiq Ağayev, Siruz Mirzəzadə və bir çox başqaları orta əsr miniatür sənətinin ənənələrinə, mifoloji mövzulara, şərti, sxematik təsvir üsullarına, assosiativliyə, simvolikaya müraciət etməklə əsl sənət əsərlərini yaratmağa nail olmuşlar.

1990-cı illərin əvvəllərində Sovetlər İttifaqının dağılması Azərbaycan rəssamlarının yaradıcılıq imkanlarını daha da genişləndirdi. Rəssamların yaradıcılıq qrupları meydana gəldi. "Peykər" qrupu, "Yeddinci mərtəbə" və s. adlar altında rəssamlar tamamilə yeni təsvir metodlarına əsaslanan orijinal sənət əsərləri yaratmağa nail olmuşlar. "Lənd art", "Zamanın qanadları" yaradıcılıq assosiasiyasının həyata keçirdiyi "Alüminiy", "Orientalizm daxildən və kənardan", "Foto art", "Video art" adlı layihələr müasir təsviri sənətimizin inkişafı yolunda əldə olunan nailiyyətlərdəndir. Bu qruplarda təmsil olunan rəssamlardan Eldar Qurbanov, Səbinə Şıxlinskaya, Namiq Məmmədov, Həsən Haqverdiyev, Hüseyn Haqverdiyev, Ucal Haqverdiyev, Elyar Əlimirzəyev, Niyaz Nəcəfov, Vüqar Muradov və başqaları müasir Azərbaycan təsviri sənətinə yeni orijinal yaradıcılıq ideyalarını gətirmişlər.

Son illərdə ABŞ, Almaniya, Avstriya, İngiltərə, İtaliya, Yaponiya, Misir Ərəb Respublikası, Birləşmiş Ərəb Əmirlikləri, İran, Türkiyə, Polşa, Rusiya və s. ölkələrdə Azərbaycan rəssamlarının əsərlərindən ibarət çoxsaylı sərgilər böyük uğurla keçirilmişdir. Rəssamlarımız bir sıra beynəlxalq müsabiqələrin mükafatlarına layiq görülmüşlər.

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin işləyib həyata keçirdiyi iri miqyaslı layihələr, müxtəlif sərgilər nəinki yalnız Azərbaycanda, həmçinin dünyanın bir çox tanınmış sərgi salonlarında rəssamlarımızın əsərlərinin nümayiş olunmasına şərait yaradır. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Azərbaycanın BMT-nin Cenevrə bölməsi və digər beynəlxalq təşkilatlar yanındakı daimi nümayəndəliyinin təşəbbüsü və yaxından köməyi ilə BMT-nin Cenevrə bölməsinin binasında "Qobustandan yol gələn naxışlar" adlı sərginin keçirilməsi müxtəlif dövlət qurumlarının milli mədəniyyətimizin təbliği yönümündə birgə atdığı addımlardandır.

Sözügedən sərgidə Azərbaycan rəssamlarının yaşlı, orta və gənc nəsllərini təmsil edən 40 rəssamın 40 əsəri nümayiş olunmuşdur. Onların əlvan rəngləri düşünülmüş kompozisiya tərtibatı, əhatə etdiyi mövzular və süjetləri bir daha BMT-yə üzv olan dövlətlərin diplomatik missiyaları qarşısında Azərbaycan xalqının sülhsevərliyini, həyata geniş və açıq fikirlə baxdığını, incə estetik zövqünü, geniş dünyadərkini nümayiş etdirmiş, xalqımızın zəngin bədii ənənələri barədə əyani təsəvvür yaratmışdır.

***İnanırıq ki, milli mədəniyyətimizin inkişafı yolunda yeni-yeni uğurların qazanılması nəinki Azərbaycan incəsənəti, həm də dünya incəsənəti xəzinəsinə verilən əvəzsiz töhfələr olacaqdır.***